## DUYĞULAR LƏLƏK SALAR

Özün tapa bilərsən bəxt adlı şirin payı,
Zəhmətin külüng çalsa, sal daşın sərt üstünə.
Həsrətlər bitən yerdə duyğular dilə gələr,
Könüllər gül bitirər ovqatın pərt üstünə.

Bu dünyanın üzündə xeyirlər var, şərlər var
Qaranlığı, işığı dolandıran pərlər var.
Talelər oyununda qoşalanmış zərlər var,
Hərənin öz məramı atılar nərd üstünə.

Durnalar qayıdanda salama lələk salar,
Saralan yarpaqları budaqdan külək salar.
Can qürbətdə can versə, niyyəti dilək salar...
Ruhu uçub gətirər, son anda yurd üstünə.

Qönçələnən güllərdi sənətkarın tər sözü,
Gözlərinlə oxşa, öp, şeh üstündə dər sözü.
Misraları qan süzər, od ələyər hər sözü,
Şair yazsa sözünü qəzəbin dərd üstünə.

Həsrətində ütülüb, arzusunda bitməyən,
Ocaq olar içində dodaqlarda ötməyən;
Yeri əli tutmayan, göyə ünü yetməyən,
Ümidini götürüb üz tutar mərd üstünə.

Savaş açdı ruhumuz, çıxdı can qorxusundan,
Yatağanı dil çaldı türkün qan qoxusundan.
Qalxdı qaraçuxamız illərin yuxusundan;
Axır ki, taleyimiz uladı qurd üstünə.

Zirvədə məkan tutub Xələfli heyrət gəzər,
Cılızlar yetə bilməz, qalxmağa qeyrət gəzər;
Qarğa-quzğun cəm olub didməyə fürsət gəzər,
Qorxusu yox qartalın, gəlsələr fərd üstünə.

***07.09.2010***

## İYİRMİ YEDDİ SENTYABR...

İyirmi yeddi sentyabr... vətən qalxdı, çağırdı,
Cərgələndi, düzləndi sandan keçən oğullar.
Analar yol dilədi, zəfər bizimdir – dedi,
Büründü al şəfəqə dandan keçən oğullar.

Qüruruna güvənən hər kəs bir əsgər oldu,
Hər əsgərin sinəsi yağıya sipər oldu.
Qaya oldu, daş oldu, vətənə səngər oldu,
Kəlbəcərdə, Laçında candan keçən oğullar.

Pəncəsi parçalayan, yumruğu dağ basandır,
Düşmənləri zarıyan, yağısı qan qusandır;
Harda döyüş çətindir, harda döyüş asandır?
Əfsanədir, nağıldır qandan keçən oğullar.

Diz çökən yağısını gücü, qüvvəti bildi,
Ölümü, öldürməyi, əzmi, qüdrəti bildi,
Şəhidliyin taxtını halal qisməti bildi,
Can güdmədi son anda, andan keçən oğullar.

Tarixin yaddaşından arınıb süzgüləndi,
Həqiqəti qılıncın hökmündə düzgüləndi,
Amurdan güc götürüb, Araldan güzgülədi,
Atilladan, Oğuzdan, Hundan keçən oğullar.

Xudafərin üstündə Arazı çağlar gördü,
Ruhunda, varlığında sevinən dağlar gördü;
Şuşa, Ağoğlan yolu... saralmış bağlar gördü,
Öpüb şəhid izini yandan keçən oğullar.

Şəhidliyin andını, adını uca öyən,
Xələflinin dilindən vətən yaşasın deyən,
Mənim ölməz ruhumu torpaq daşısın deyən,
Ucuz şöhrətdən, addan, sandan keçən oğullar.

***27.09.2021***

## MSSN ŞUŞAYA GEDİRSSM

Zəfər yolu çağırır, ruhum uçur yollara,
Aşıram neçə həddi, mən Şuşaya gedirəm.
Həsrətlərə od vurub, ayrılığı yandırıb,
Yıxıb divarı, səddi, mən Şuşaya gedirəm...

İnamımın ocağı küləkləndi, qor aldı,
Ümidimin köhləni şahə qalxdı, zor aldı...
Varlığım sahmanına  tale payı var aldı,
Düzəldib bükük qəddi, mən Şuşaya gedirəm...

Pənah xan, İbrahim xan, ulu Natəvan səsi,
Ürəyimə, ruhuma içdim bu rəvan səsi,
Qəlbimə təpər verdi Qarabağın nəfəsi,
Yol açdı  işıq cəddi, mən Şuşaya gedirəm...

Gordu baba əvəzi , Qurbani, Diri də mən,
Xələf dağa can verib, yeriyən sirri də mən,
Su yoluna döndərib, gedənin biri də mən,
Tapdayıb izi, rəddi , mən Şuşaya gedirəm...

Sevincimi pay bölüm dedim bütün aləmə,
Gördüm bir səs deyir ki, yalan hay küy eləmə,
Xələflinin səsinə oyandım ki, sən demə,
Yuxuda keçib xətti, mən Şuşaya gedirəm...

***19. 09. 2021.***

## BƏLKƏ, GÖRƏSƏN, VƏTƏN

Gözlərinin önündə bitmişəm axı sənin,
Neyləyim, necə baxım, bəlkə, görəsən, Vətən?!
Sinəmdə yanan ürək, için-için odlanır,
Od olum, şimşək çaxım, bəlkə, görəsən, Vətən?!

Yağdım bahar yağışı, oldum payız çiskini,
Sözüm ilə ovutdum neçə qəlbi küskünü.
Yaralı ürəklərin, könüllərin təskini,
Canımı oda yaxım, bəlkə, görəsən, Vətən?!

Məkkə, Mədinə bildim aranını, dağını,
İməklədim doyunca, öpdüm Qarabağını.
Səndən ötrü əritdim gözlərimin yağını,
Yarana məlhəm yaxım, bəlkə, görəsən, Vətən?!

Ağrının zirvəsindən boylanım Turan boyu,
Harayıma hay versin Babək, Cavanşir soyu.
Xudafərin üstündən başlansın Vətən toyu,
Kam alım, mən də baxım, bəlkə, görəsən, Vətən?!

Ruhumun özü bil sən Qarabağ bülbülünü,
Çəkərsən gözlərinə Xələflinin külünü!..
Şuşadan özüm dərim Xarıbülbül gülünü,
Sinəmin üstə taxım, bəlkə, görəsən, Vətən?!

***30.09.2021***

Kredo.- 2021.- 1 oktyabr.- S.1.

Əli Rza  Xələfli